Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Ünvan: ISR Plaza, Nizami küç. 69 AZ 1005 Bakı
Azərbaycan
Poçt:P.O. Box 28/29 AZ 1005 Bakı Azərbaycan
Telefon:00994-12-4654127
Telefaks: 00994-12-4654125
Email: visa@baku.diplo.de
İnternet: www.baku.diplo.de

Aktuallaşdırılmışdır: iyul 2018

# Almaniyada həkim kimi əmək fəaliyyətinə başlamağın mərhələləri

Almaniyada həkim kimi  əmək fəaliyyətinə başlamaq üçün xarici vətəndaşların iki müxtəlif imkanı vardır. Aşağıda bu imkanlar haqqında ətraflı məlumat tələb olunan viza üçün hüquqi əsaslar göstərilməklə təqdim olunacaqdır. Bu məlumatlar səfirliyin gündəlik işindəki təcrübəyə əsaslanır və tam şəkildə olmaya bilər. Məlumatlar ayrı-ayrı hallarda rast gəlinən praktiki təcrübə əsasında tərtib edilmişdir.

## A. Alman universitetində ali tibb təhsilinin bitirilməsi

I. Şərtlər:

- Alman dili bilkləri təsdiq olunmaqla alman universitetinə qəbul məktubu (Zulassung)

II. Hüquqi əsaslar:

- Universitetin qəbul məktubu təqdim edilərkən: Yaşamaq haqqında qanunun §16-cı maddəsinin 1-ci bəndinə əsasən ali təhsilə başlamaq üçün viza
- Ali təhsil məqsədinin inandırıcı olduğunu sübut edərkən: Yaşamaq haqqında qanunun §16-cı maddəsinin 7-ci bəndinə əsasən abiturientlər üçün viza
- Ali təhsil üçün əvvəl alman dili bilikləri dil hazırlığı kurslarında sənədlə təsdiq edilməklə əldə olunmalıdırsa: Yaşamaq haqqında qanunun §16-cı maddəsinin 1 S.2,3 Nr.2 bəndində Nr. 2 əsasən viza
- Xarici orta məktəb təhsili dərhal ali təhsilə başlamaq üçün kifayət etmirsə, əvvəl kollecdə (Studienkolleg) təhsil almaq lazımdır. Kollecə qəbul haqqında məktub göstərilməklə Yaşamaq haqqında qanunun §16-cı maddəsinin 1 S. 2, 3 bəndində Nr. 2 əsasən viza verilə bilər. (Nordrhein-Westfalen istisna olunur: Bu federal torpaqda kollec ləğv olunmuşdur və "Bilik səviyyəsinin təyin olunması imtahanı" (Feststellungsprüfung) ilə əvəz edilmişdir. Bu imtahana abiturient Köln yerli idarəetmə orqanının təlimatı ilə müstəqil şəkildə, yaxud lazım gələrsə özəl qurumların xidmətindən istifadə etməklə hazırlaşmaq olur.)

## B. Avropadan kənar xarici dövlətdə tibb təhsilinin bitirilməsi

Xarici ölkədə tibbi təhsili bitirdikdən sonra Almaniyada tibb sahəsində peşə fəaliyyətinə icazə yaxud aprobasiya əldə etmək imkanı vardır. Peşə fəaliyyətinə icazə və ya aprobasiya üçün əmək fəaliyyətinə başlayacağınız federal torpaqda müraciət etmək lazımdır. Aprobasiya bütün federal ərazidə müddətsiz və məhdudiyyətsiz həkim fəaliyyətini hyata keçirmək hüququ verir. Xarici  ali təhsili olan şəxslər bunun üçün bir qayda olaraq bilik imtahanından keçməlidirlər. Buna rəğmən xarici ali məktəb məzunlarına bilik imtahanına hazırlıq məqsədilə həkim kimi fəaliyyət göstərə bilmək üçün müddətli, geri alına bilən habelə müəyyən işlər və iş yerləri ilə məhdudlaşan peşə fəaliyyəti üçün icazə verilir. Həkim-mütəxəssis (Facharzt) kimi rezidentura təhsilinin həyata keçirilməsi üçün aprobasiyanın əldə edilməsi zəruridir. Əlavə məlumatları federal torpaqların məlumat bazalarından əldə etməyiniz xahiş olunur.

**Peşə fəaliyyəti üçün icazə və ya Aprobasiya olmadan tibbi fəaliyyət göstərmək Tibbi müalicə haqqında qanunun §5-ci maddəsinə əsasən cəzalandırılır.**

## I. hazırlıq tədbirləri

Peşə fəaliyyətinə dair icazə yaxud aprobasiyanın verilməsi üçün xaricdə bitirilmiş ali tibb təhsilinin Almaniyadakı tibb təhsili ilə müqayisədə *eyni səviyyədə* olması şərtdir.

Xarici diplomun Almaniyada tanınması (formal) ilə yanaşı (ANABİN səhifəsində tanınma müəyyən edilir: http://anabin.kmk.org/anabin.html) alman dili və tələb olunduğu təqdirdə peşə bilikləri də təsdiq olunmalıdır. Bunun üçün bir qayda olaraq hazırlıq məqsədilə dəfələrlə Almaniyada olmaq şərtdir.

*1) Dil kurslarında iştirak*

Peşə fəaliyyətinə dair icazə yaxud aprobasiyanın verilməsi üçün ümumi alman dili bilikləri ən az B2 səviyyəsi habelə bundan başqa əksər federal torpaqlarda ixtisasyönümlü dil bilikləri C1 səviyyəsində tələb olunur. Bu dil bilikləri rəsmi tanınan qurumun sertifikatı (məs., ümumi dil bilikləri üçün telc və ya Goethe-İnstitut; ixtisasyönümlü dil bilikləri üçün ixtisas üzrə dil imtahanı) ilə təsdiq oluna bilər. Bu imtahanlara hazırlıq Almaniyada (çoxaylıq) dil kurslarında iştirak etməklə baş tuta bilər.

Bu halda viza rəsmiləşdirilməsi Yaşamaq haqqında qanunun §16 maddəsinin 1-ci bəndinə əsasən həyata keçirilir. Almaniyada bu viza yalnız məhdud vaxt kəsiyi üçün ən çox bir il müddətinə uzadıla bilər. Ərizəçi dil kursları bitdikdən sonra mütləq yenidən vətənə geri qayıtmalıdır.

*2) Praktikada iştirak*

Nəzəri biliklərin və dil bacarıqlarının dərinləşdirilməsi məqsədilə bir alman xəstəxanasında praktika keçmək üçün viza rəsmiləşdirilməsi həyata keçirilə bilər. Burada söhbət əsasən 3 ayadək qısa müddətli səfərdən söhbət gedir və bu məqsədlə Şengen vizası üçün müraciət edilməlidir. Bu vizanın Almaniyada uzadılması mümkün deyildir və vizanın sahibi vizanın etibarlılıq müddəti bitən kimi Şengen dövlətləri ərazisini mütləq tərk etməlidir.

**Nəzərə alınmalıdır:** Passiv praktikanın həyata keçirilməsi heç bir praktiki fəaliyyət göstərmək hüququ vermir, praktikant yalnız müşahidə edə bilər və heç bir halda aktiv fəaliyyət göstərməməlidir. Bu qan analizlərinin götürlüməsi, yaraların tikilməsi, əməliyattlarda asistentlik və s. kimi işlərin görülməsini istisna edir. Bu qaydaların pozulması Tibbi müalicə haqqında qanunun §5-ci maddəsinə əsasən cəzalandırılır.

*3) Xarici universitet diplomunun tanınması üçün uyğunlaşdırma tədbirləri*

Peşə fəaliyyəti üçün icazə və ya aprobasiyanın verilib-verilməməsinə dair imtahan çərçivəsində əlaqədar idarə müəyyən edə bilər ki, dil bilikləri yaxud praktiki biliklər xüsusi səviyyədə təsdiq olunmalıdır. Bu təsdiq sənədləri bir qayda olaraq müvafiq kurslarda iştirak etməklə və praktika keçməklə əldə oluna bilər.

Bu haqda məktubun əsasında və müvafiq uyğunlaşdırma tədbirlərinə qeydiyyatın təqdim olunması ilə Almaniyada yaşamaq üçün Yaşamaq haqqında qanunun §17-ci maddəsinə əsasən çoxaylıq viza rəsmiləşdirilməsi həyata keçirilə bilər. Bu viza ayrı-ayrı hallarda əmək fəaliyyəti ilə məşğul olmaq hüququ verə bilər. Uyğunlaşdırma tədbirlərini başa çatdırdıqdan sonra vətənə geri dönmək zərurəti yaranmadan Almaniyada vizanın dəyişilməsi (məs., işə başlamaq üçün) mümkündür.

## II. Əmək fəaliyyətinə başlamaq

Əgər Siz pəşə fəaliyyəti üçün icazə və ya aprobasiya əldə etmək üçün kifayət qədər alman dili bilkləri və praktiki təcrübəyə maliksinizsə, bu halda Sizin Almaniyada əmək fəaliyyətinə başlamaq imkanınız vardır.

*1) Iş yeri axtarmaq üçün viza*

Əgər hələ dəqiqi iş yerindən təklif almamısınızsa Sizin üçün Yaşamaq haqqında qanunun §18c maddəsinə əsasən iş axtarmaq məqsədilə 6 ayadək etibarlı olan viza rəsmiləşdirlməsi həyata keçirilə bilər. Bu müddət ərzində Siz bütün federal dövlətin ərazisində müsahibələrdə

iştirak edə bilərsiniz. Qısa müddətıi dil kurslarında iştirak etmək və ya passiv praktika keçmək əsasən mümkün olsa belə bu işlər səfərin əsas məqsədi olmamalıdır. Səfərin əsas məqsədi iş yerinin axtarılması olmalıdır.

Bu viza əmək fəaliyyətinə başlamaq və ya praktika keçmək hüququ vermir. Praktika üçün yuxarıda qeyd olunan şərtlər qüvvədədir.

Əgər Siz Almaniyada qaldığınız bu müddət ərzində iş yeri tapa bildinizsə, o zaman Siz yaşadığınız yerin səlahiyyətli Miqrasiya idarəsində əmək fəaliyyətinə başlamaq məqsədilə viza üçün müraciət edə bilərsiniz.

*2) dəqiq iş yerindən təklif vardır*

Artıq konkret iş təklifi vardırsa, Siz Səfirliyə Yaşamaq haqqında qanunun §18-ci maddənin 4-cü bəndi və ya §19a maddəsinə (Mavi kart Aİ) əsasən iş vizası üçün müraciət edə bilərsiniz. Viza rəsmiləşdirilməsi üçün əsas Sizin gələcək aylıq məvacibinizin məbləğindən asılı olacaqdır.

Peşə fəaliyyəti haqqında icazənin və ya aprobasiyanın yaxud onun veriləcəyi haqqında təminat arayışının (Zusicherung) təqdim olunması zəruri şərtdir. Səlahiyyətli alman idarələrində müvafiq ərizələrin işlənməsi mütəmadi olaraq bir neçə həftə və ya ay davam edir. Sənədlərin işlənmə müddətini ərizəçi öz vətənində gözləməlidir. Bu gözləmə müddətində bir çox hallarda əmək müqavilələrində razılaşdırılmış praktika keçmək yaşamaq haqqında qanun müddəalarına görə mümkün deyildir. Viza rəsmiləşdirilməsi yalnız təminat arayışının (Zusicherung) təqdim olunduğu təqdirdə həyata keçirlə bilər.

Viza proseduru, xüsusilə təqdim olunması zəruri olan və səfərin məqsədindən asılı olaraq fərqlənən sənədlər haqqında məlumatları Səfirliyin rəsmi internet səhifəsindən əldə edə bilərsiniz. Xüsusilə yuxarıda sözü gedən səfər məqsədləri üçün tərtib olunmuş məlumat vərəqələirinə diqqət yetirməyiniz tövsiyyə olunur.